| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 22.12.2020 |
| QEYDİYYAT NÖMRƏSİ | 230-VIQD |
| ADI | “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Banklar haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 08-01-2021, Nəşr nömrəsi: 3), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31.01.2021, Nəşr nömrəsi: 1, Maddə nömrəsi: 8) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 08.01.2021 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 070.080.020<br>080.020.090 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 12202012220230 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 07.01.2021 |

**“Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Banklar haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 13-cü, 17-ci və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 8, maddə 406; 2009, 12, maddə 971; 2011, 6, maddə 462; 2013, 5, maddə 484; 2018, 6, maddə 1172) 10.2.2-ci maddəsində “şərti maliyyə vahidinin yüz mislindən əlli min mislinədək” sözləri “yüz on manatdan əlli beş min manatadək” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 3, maddə 125; 2005, 4, maddə 285, 10, maddə 876; 2007, 10, maddə 934, 12, maddə 1219; 2013, 6, maddə 595; 2016, 11, maddə 1762; 2017, 11, maddə 1948) 5-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.1.5-ci maddədə “şərti maliyyə vahidinin beş min misli miqdarından” sözləri “beş min beş yüz manatdan” sözləri ilə əvəz edilsin;

2.2. 5.1.6-cı maddədə “şərti maliyyə vahidinin min mislindən” sözləri “min yüz manatdan” sözləri ilə əvəz edilsin.

**Maddə 3.** “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 3, maddə 130; 2005, 4, maddə 276; 2007, 5, maddə 401, 6, maddə 562, 11, maddə 1070; 2008, 11, maddə 960; 2009, 6, maddə 404, 7, maddə 517; 2010, 4, maddə 276, 10, maddə 839; 2011, 7, maddə 590; 2013, 7, maddə 790; 2014, 7, maddə 772, 12, maddə 1517; 2015, 11, maddə 1262; 2016, 3, maddə 406, 6, maddə 975; 2017, 4, maddə 521, 11, maddə 1956, 12 (I kitab), maddə 2227; 2018, 1, maddə 33, 5, maddə 842, 7 (I kitab), maddə 1389, 12 (I kitab), maddə 2466; 2019, 1, maddələr 32, 50, 4, maddə 599, 6, maddə 999, 7, maddə 1185, 8, maddə 1365; 2020, 5, maddə 515) 57-7.3.2-ci maddəsinin ikinci və 57-9.8-ci maddəsinin üçüncü cümlələrində “şərti maliyyə vahidinə” sözləri “1 (bir) manata” sözləri ilə əvəz edilsin.

**Maddə 4.** “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 8, maddə 520; 2004, 5, maddə 314; 2005, 2, maddə 62; 2006, 6, maddə 486, 8, maddə 657, 11, maddə 923; 2007, 11, maddə 1082; 2008, 5, maddə 348, 6, maddə 462, 11, maddə 958, 12, maddə 1048; 2011, 12, maddə 1077; 2012, 6, maddə 507; 2014, 10, maddə 1170; 2015, 2, maddə 85, 10, maddə 1091; 2018, 1, maddə 29; 2020, 7, maddə 850) 18.7-ci maddəsindən “şərti maliyyə vahidinin misli ilə müəyyən olunan dərəcələri” sözləri çıxarılsın və həmin maddədə “həcmdə” sözü “vergi dərəcələri” sözləri ilə əvəz edilsin.

**Maddə 5.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 4 (I kitab), maddə 250, 5, maddə 323; 2002, 12, maddə 709; 2003, 8, maddə 420; 2004, 3, maddə 123, 5, maddə 318, 6, maddə 415, 10, maddə 761, 11, maddə 901; 2005, 2, maddə 61, 6, maddə 466, 8, maddələr 684, 692, 693, 11, maddə 996, 12, maddə 1085; 2006, 2, maddə 68, 3, maddə 225, 5, maddə 387, 6, maddə 478, 8, maddə 657, 12, maddə 1005; 2007, 2, maddə 80, 6, maddə 560, 8, maddə 745, 10, maddə 937, 11, maddə 1053, 12, maddələr 1215, 1219; 2008, 3, maddə 145, 6, maddə 456, 7, maddə 602, 12, maddə 1049; 2009, 2, maddə 47, 5, maddə 295, 6, maddə 404, 7, maddə 517; 2010, 2, maddə 75, 3, maddə 171, 4, maddələr 265, 266, 276; 2011, 2, maddə 71, 7, maddə 586, 8, maddə 750, 12, maddələr 1073, 1102; 2012, 1, maddə 5, 5, maddə 403, 6, maddə 498; 2013, 1, maddə 15, 6, maddə 620, 11, maddə 1280, 12, maddələr 1469, 1478; 2014, 2, maddə 96, 7, maddə 768; 2015, 3, maddə 254, 5, maddə 512, 7, maddə 814, 10, maddə 1093; 2016, 1, maddə 26, 2 (I kitab), maddələr 186, 204, 3, maddə 401, 4, maddələr 640, 646, 6, maddə 1005, 7, maddə 1248, 12, maddələr 1998, 2018; 2017, 2, maddələr 151, 153, 4, maddə 524, 5, maddələr 703, 735, 6, maddə 1035, 11, maddə 1953, 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, 2, maddə 142, 4, maddə 650, 5, maddələr 851, 845, 11, maddə 2212, 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, 1, maddələr 23, 50, 5, maddələr 806, 812, 814, 6, maddələr 994, 996, 7, maddə 1202, 8, maddə 1369, 11, maddə 1681, 12, maddə 1908; 2020, 5, maddə 515, 7, maddələr 822, 832, 839, 843) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 870.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“870.2. Ödənilən rentanın miqdarı renta müqaviləsində nəzərdə tutulmuş hallarda və qaydada artırılır.”;

5.2. 1124-cü maddə üzrə:

5.2.1. adında “şərti maliyyə vahidinin” sözləri “yaşayış minimumunun” sözləri ilə əvəz edilsin;

5.2.2. 1124.2-ci maddədə “Şərti maliyyə vahidinin” sözləri “Yaşayış minimumu” sözləri ilə, “şərti maliyyə vahidinin” sözləri “yaşayış minimumunun” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 dekabr 2020-ci il
230-VIQD